# Ağ çiçəklə əkiztay



■ GÜLAYƏ

Dünyaya, səni əhatə edən predmetlərə şair Barat Vüsalın gözü ilə baxanda hər şey belə-yaxşı, gözəl, mistik tərəfindən görünür. Səmimi bir münasibətlə fərqinə varırsan ki, bir özgəsini üşüdən, ya işlərini müşkülə salan soyuq qar bir özgəsi üçün çəmənlərə gedən körpü kimidi və onun üstündən keçmək də, uçmaq da olar.

Yazanlar sözə sahib olan yerdə bədii təsvir, yaşatma və mənalandırma məhz bu cür uğurlu alınır. Barat haqqında bəhs etdiyi predmetləri, lap elə konkret şəxsləri, yeri-yurdu ilk növbədə özününküləşdirə, öz düşüncə köynəyindən keçirə bilir, haqqında bəhs etdiklərinə "mənim çəmənim", "mənim dağım, dərəm, ormanım", "mənim Xəlilim, Yusifim" deyə bilir. Və ən başlıcası odur ki, oxucu bütün hallarda B.Vüsalın səmimiyyətinə inanır. O, adi xatirələrində belə dəqiq və duyğuludu, üzdə olanı, görünəni yox, mahiyyəti, pünhan olanı göz önünə gətirir. Bax elə bu xatirədə olduğu kimi: "Mən öz Xəlilimi-deməli hamının Xəlilini (X.R.Ulutürkdən söhbət gedir) ilk dəfə bütün tərəflərilə Bakıda, Xaqani küçəsində bir səhər vaxtı görmüşəm... Yanımdan sürətlə keçə-keçə üzü mənə tərəf azacıq çevrilmiş şəkildə qolundakı saata işarə elədi və dedi:

- Barat, mən vaxtla qaçıram! Dayana bilmərəm!

Mənim pərt olmamağım üçün qaçmağına davam edə-edə bir daha əlavə etdi:

- Axşam bizə gələrsən! Gözləyəcəm!



...Xəlil Rza dayana bilməzdi... Dayansaydı o anda saniyələrin əvəzində saatları, günləri, ayları, bəlkə də illəri itirə bilərdi. Nə yaxşı ki, dayanmadı..."

Bu kiçik xatirənin özündə belə Barat Vüsal şair olaraq özünə, ruhuna və müşahidə itiliyinə, həssaslığına sadiqdi. Ona görə ki, Barat hər bir halda sözün sahibi olmaq səahiyyətinin fərqində olmağı bacarır və ətrafa "sözün sahibləri ölməyib hələ" mesajını tam arxayınlıqla verir.

Baratı oxuduqca əsl poeziya, sənət yoluna nə qədər Yol olduğunun fərqinə çox gözəl varırsan. Bu yola vaqif olduqca şairin "göydən tutub sallaşmaq", "gül-gül açılmaq" istəkləri, "ələ əl çalmaq" həyəcanı oxucuya çox təbii, anlaşılan olur. Barat hər bir halda göylər kimi sirli, yerlər kimi adi, Nuhdakı fəryadların ruhdakı fəryadı, yeddi qatlı göylərin yerlərdəki qatı olaraq təsvir etdiyi predmetin poetik təsvirini və təqdimini verir. O, sevincin də, dərdin də insanda insan yapan qüdrətini an-an hiss edir, anladır edir ki:

*Yer üzündə bütün adlar Dərd adı,*
*Bütün adlar dərd içində dardadı.*
*Adamlara üz tuturam, dərd artır,*
*Qələm, bircə sən bilirsən dərdimi...*

Barat öz yer-göyünə, arzuladığı məkana, öz sarayına və hətta öz harayına sözün lütfüylə yetməyin şükranlığını yaşayan şairdi. Və məhz buna görə də səmimi şəkildə yaza bilir ki:

*Mən öz yer-göyümə yetə bilməzdim,*
*Mən öz sarayıma çata bilməzdim,*
*Mən öz harayıma çata bilməzdim,*
*Yaxşı ki, söz varmış, yaxşı ki, qələm.*

Onun poetik gücü qələmin və sözün həqiqətindədi. O, qələmin və sözün həqiqəti altda çıxan cana aşiqdi. Qələmin və sözün vəhdəti onu öz dünəninə, öz zatına, ulusuna götürən qoşa qanad kimidi. O, "həvəskar geriyə çəkilməyəcək sənətkar sənətə qayıtmayınca" dünyagörmüşlüyü ilə yazıb-yaradır. Baratn şeirləri hər şeydən öncə barış, anlaşma şeirləridi. Və əslində, bu dəyərlər poeziyanın başlıca mövzusu, özündə ehtiva etdiyi zəruri missiyadırBaratn şeirlərində fəlsəfi düşüncələrlə sadə həyat həqiqətlərinin səmimi ifadəsi eyni ustalıq və uyarlıqla şəkillənir. Bu deyilənləri "gözə qədər hamı görür, gözümdən anrı görüm", "ruhdan qalma gəmidi, qəbir də qəbir deyil", "yol inciyər, yola gəlməz, yol könüldən keçsin gərək", "Tanrı dedi bircə söz deməlisən, sözü tapanacan həyatm bitdi", "ruhdakı fəryadların ruhundakı fəryadam" kimi misralarında apaydın görürük.